*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitinin ELMİ ƏSƏRLƏRİ № 30, 2021*
*УЧЁНЫЕ ЗАПИСКИ Азербайджанского Государственного Университета Культуры и Искусств № 30, 2021*
*SCIENTIFIC NEWS of Azerbaijan State University of Art and Culture № 30, 2021*

# M U S İ Q İ   S Ə N Ə T İ

**UOT: 784; 78**

**İlham Nəzərov**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
**Baş müəllim,**
**Azərbaycan Respublikasının Əməkdar artisti**
**E-mail: ilhamnazarov@yahoo.com**

## MÜĞƏNNİ-RƏSSAM ƏLİ HAQVERDİYEVİN YARADICILIĞINA BİR NƏZƏR

**Xülasə**: Məqalədə Azərbaycan Respublikasının Əməkdar artisti Əli Haqverdiyevin yaradıcılığına nəzər salınmışdır. Burada müğənninin çoxcəhətli fəaliyyətinə, eləcə də həyat və yaradıcılığının xüsusiyyətlərinə aydınlıq gətirilmişdir. Ə.Haqverdiyev musiqi mədəniyyəti tarixinə vokal ifaçısı, rəssam, aktyor, müəllim kimi daxil olmuşdur. O, bu fəaliyyət sahələrinin hər birində öz sözünü deməyə müvəffəq olmuşdur.

**Açar sözlər**: Əli Haqverdiyev, opera, bariton, müğənni, səs.

Əsası SSRİ Xalq artisti Bülbül tərəfindən qoyulan Azərbaycan vokal ifaçılıq sənəti zəngin ənənələrə malikdir. Bu ənənələr bilavasitə bəstəkarlıq yaradıcılığı ilə bağlı olaraq inkişaf etmiş və akademik vokal ifaçılıq məktəbimizin nümayəndələrinin formalaşmasına zəmin yaratmışdır. Eyni zamanda milli kadrların hazırlanmasında Azərbaycan Dövlət Konservatoriyası da mühüm rol oynamışdır. Musiqişünas Gülnarə Vəzirova "Azərbaycan opera səhnəsinin tarixindən" adlı məqaləsində həmin illəri aşağıdakı şəkildə xarakterizə etmişdir: "...Ölkənin musiqi tarixinə təkraredilməz səhnə ustalarının – H.Q.Sarabskinin, Ə.Ağdamskinin, M.Terequlovun, A.Bünyadzadənin, S.Qacarın, C.Talışinskayanın, G.Həsənovanın, H.Rzayevanın, M.Əliyevin, rejissor H.Ərəblinskinin adları nəqş olunmuşdur. 1920-30-cu illərdə onlardan estafeti gənc müğənnilər aldılar. Həyatı çoxdan tərk etmiş sənətkarlar öz adlarını opera sənətinin yeni mərhələsinə həkk etdilər. Bu mərhələdəki müğənnilərin rolu xüsusilə mürəkkəb idi. Onlar yeni Avropa tipli milli operanın yaradılmasında ilkin idilər. Bu məşhur müğənnilər – Ş.Məmmədova, Bülbül, S.Qacar, M.T.Bağırov, Ə.Sadıxov, C.Talışinskaya, M.Paşayeva, E.Axundova, S.Quliyeva, G.Həsənova, H.Rzayeva və başqaları idilər" [3]. Növbəti illərdə isə vokal ifaçılıq sənətimizi təmsil edən azərbaycanlı ifaçıların sayı çoxalmış və onlar Azərbaycan vokal ifaçılıq sənətimizi dünyada tanıtmışlar. Həmin sənətkarların hər birinin adı musiqi mədəniyyətimizin tarixinə əbədi olaraq

həkk olunmuşdur. Onlardan SSRİ və Azərbaycan Xalq artistləri F.Əhmədova, R.Atakişiyev, L.İmanov, F.Mehdiyev, M.Bədirov, Fidan və Xuraman Qasımova bacılarını, eləcə də digərlərini göstərmək mümkündür. Burada SSRİ Xalq artistləri R.Behbudov və M.Maqomayevin yaradıcılığını xüsusi olaraq vurğulamaq istərdim. Hər iki sənətkar vokal musiqimizi fərqli istiqamətlərdə təmsil edərək dünya səviyyəsinə qaldırmışlar. Onların gətirdiyi yeni yaradıcılıq ənənələri, ifaçılıq üsulları vokal ifaçılıq sənətimizi yeni tendensiyalarla daha da zənginləşdirmişdir. Beləliklə, Azərbaycan Avropa ənənəli akademik vokal ifaçılıq sənətimizin qısa zaman ərzində yaranmasına baxmayaraq böyük yol keçməsi fenomenal hadisə kimi dəyərləndirilə bilər [2].

Həmin dövrdə fəaliyyət göstərən vokal məktəbimizin görkəmli nümayəndələrindən biri də Azərbaycan Respublikasının Əməkdar artisti, bariton səs tembrinə malik müğənni Əli Həsən oğlu Haqverdiyev olmuşdur. Ə.Haqverdiyevin yaradıcılığı XX əsrin 1958-92-ci illərini əhatə edir. Müğənninin sənət yolu çoxcəhətli olması ilə diqqəti cəlb edir. Ümumiyyətlə, həmin dövrə nəzər yetirdikdə bu illərdə fəaliyyət göstərən vokal ifaçılarımızın yaradıcılığında müəyyən paralelləri müşahidə etmək olar. Belə ki, müğənnilərimiz incəsənətin bir çox sahələrinə müraciət etmiş və bu fəaliyyət növləri onların yaradıcılığına sirayət etmişdir. Ə.Haqverdiyevin yaradıcılığı da istisna deyildir. Belə ki, o, böyük vokal ifaçılıq imkanlarına malik müğənni olmaqla yanaşı, rəssamlıq, aktyorluqla da məşğul olmuş, qiraətçi kimi fəaliyyət göstərmişdir. Bu fəaliyyət növləri görkəmli ifaçının yaradıcılığında müstəqil, həm də onun vokal ifaçılıq fəaliyyəti ilə uzlaşmış şəkildə təzahür etmişdir. Aparılan tədqiqatda da ilk növbədə müğənninin həyat və yaradıcılığına qısa şəkildə nəzər yetirmək, sənət yolunun formalaşma səbəblərini aydınlaşdırmaq istərdim.

Ə.Haqverdiyevin bir musiqiçi kimi formalaşmasında, eləcə də incəsənət aləminə meyl etməsində ailəsinin mühüm rolu olmuşdur. Belə ki, o, 1939-cu ildə Bakı şəhərində rəssam H.Haqverdiyev və G.Mustafayevanın ailəsində anadan olmuşdur. İlk dəfə 1955-ci ildə Ə.Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinə qrafika ixtisası üzrə daxil olmuş, 1958-ci ildə isə o vaxtki A.Zeynallı adına Musiqi Texnikumunda A.Milovanovun sinfində təhsil almışdır. 1961-ci ildə isə Ə.Haqverdiyev Azərbaycan Dövlət Konservatoriyasının vokal sinfinə qəbul olunmuşdur. Əfsanəvi ifaçı Bülbül onun vokal ifaçılıq imkanlarını yüksək qiymətləndirmiş və gələcəyinə böyük ümidlərin olmasını qeyd etmişdir. Bülbül Ə. Haqverdiyevi öz sinfinə götürsə də, sənətkarın vəfat etməsi səbəbindən müğənni təhsilini Xalq artisti Ş.Məmmədova və Q.Tartakovun sinfində davam etdirmişdir. Ə.Haqverdiyevin müğənni kimi formalaşmasında Azərbaycan vokal ifaçılıq məktəbinin, onun görkəmli nümayəndələrinin böyük təsiri olmuşdur. İfaçının bacısı, Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova Ə.Haqverdiyevlə bağlı kitabında bu məqamı çox gözəl şəkildə xarakterizə etmişdir: "Əlbəttə,

Əlinin formalaşmasında Azərbaycan vokal ifaçılıq məktəbinin mühüm təsiri olmuşdur. Ancaq son məqamda artistin müəlliminin elə özü olması məlum olur. Əli heç kimin məsləhətlərinə laqeyd deyildi. Bütün bunları o, öz tənqidi prizmasından, məntiqindən keçirərək qəbul edirdi" [4]. 1962-ci ildə Ə.Haqvediyev Niyazi ilə tanış olur və bu tanışlığın nəticəsində maestro onu Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına dəvət edir. Beləliklə, müğənninin yaradıcılığında yeni bir dövr başlanır. Bu teatrın səhnəsində o, müxtəlif illərdə fərqli obrazlar canlandırmışdır. İfaçı Ü.Hacıbəylinin "Arşın mal alan" operettasından Soltan bəy, "Leyli və Məcnun" operasından Nofəl, "Koroğlu" operasından Həsən xan, Ş.Qunonun "Faust" operasından Mefistofel, C.Verdinin "Riqoletto" operasından Riqoletto, "Otello" operısından Yaqo, "Trubadur" operasından Fernando, C.Puççininin "Toska" operasından Skarpiya, C.Bizenin "Karmen" operasından Eskamilio, M.Maqomayevin "Şah İsmayıl" operasından Aslan şah, F.Əmirovun "Sevil" operasından Atakişi, R.Mustafayevin "Vaqif" operasından İbrahim xan, Q.Qarayev-C.Hacıyevin "Vətən" operasından Mərdan və digər obrazları opera teatrının səhnəsində böyük ustalıqla canlandırmışdır. Beləliklə, Ə.Haqverdiyev Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında 30 illik fəaliyyəti (1962-1992) ərzində 30-dan çox obraz ifa etmişdir [4].

Ə.Haqverdiyevin çoxcəhətli yaradıcılığında aktyorluq və rəssamlıq fəaliyyəti mühüm yerə malikdir. Belə ki, onun "Dədə Qorqud", "Özgə ömür", "Üzeyir ömrü", "Şir evdən getdi" kimi kinofilmlərdə canlandırdığı rolları müğənnini professional kino aktyoru kimi qiymətləndirməyə imkan verir. Xüsusilə, Ə.Haqverdiyevin Xalq artisti Tofiq Tağızadənin "Dədə Qorqud" filmində yaratdığı Yalancıq obrazı öz həqiqiliyi və inandırıcılığı ilə tamaşaçıların böyük məhəbbətini qazanmışdır.

Musiqiçinin rəssamlıq fəaliyyətindən danışarkən onun qrafika ustası olmasını qeyd etmək istərdim. Ə.Haqverdiyev həm də Azərbaycan Rəssamlar İttifaqının üzvü olmuşdur. Ə.Haqverdiyevin çəkdiyi Xalq artistləri A.Bünyatzadə, Ç.Sadıxov, A.Neymətov, F.Qasımova, R.Atakişiyev, M.Məmmədov, V.Novatski, Y.Statnik, A.Maslennikov kimi görkəmli şəxsiyyətlərin portretləri onu peşəkar rəssam kimi xarakterizə edir. Müğənninin rəsm əsərləri Kiyev, Moskva, Sankt-Peterburq kimi şəhərlərdə nümayiş etdirilmişdir. Sənətkarın yaradıcılığına diqqət yetirən zaman bu keyfiyyətlərin onun ifaçılıq fəaliyyətində də harmonik şəkildə çıxış etdiyinin şahidi oluruq. İfaçının opera səhnəsində yaratdığı istənilən obrazda bu məqamı müşahidə etmək mümkündür. Belə ki, burada aktyorluq, rəssamlıq qabiliyyəti vokal imkanları ilə üzvləşmiş və onun yaratdığı hər bir obrazın tam açılmasına xidmət etmişdir. Müğənninin səhnə hərəkəti, səsi, eləcə də tələffüz vasitəsilə xarakterin açılması və qrimi obraza olan detallı yanaşmasından xəbər verir.




Əli Haqverdiyev müğənni kimi də çoxcəhətli istedada sahib idi. O, opera müğənnisi olmaqla yanaşı, həm də kamera-vokal ifaçısı kimi fəaliyyət göstərmişdir. İfaçının kamera-vokal yaradıcılığının da özünəməxsus xüsusiyyətləri vardır. Belə ki, o, bir çox romans və mahnıları Azərbaycan dilinə tərcümə edərək səsləndirən ilk ifaçılardan biri olmuşdur. Nümunə olaraq italyan mahnıları, rus bəstəkarlarının romanslarını göstərmək mümkündür. Həmin əsərlərin doğma dilimizdə səsləndirilməsi onlara yeni yanaşmanı göstərməklə bərabər, eyni zamanda romansların mənasının anlaşıqlı olmasına şərait yaradırdı. Bunu görkəmli müğənninin həm də XX əsrin əvvəllərində Opera və Balet Teatrında opera tamaşalarının Azərbaycan dilində səsləndirilməsi ənənəsini bərpa etmək istəyi kimi qiymətləndirmək olar. Ə.Haqverdiyevin mahnı və romans mətnlərinin tərcümələri olduqca böyük maraq doğurur. Məlum olduğu kimi, mahnı mətnlərinin tərcümə edilməsi mürəkkəb məsələlərdən biridir. Burada orijinal mətnin mənasının itirilmədən çatdırılması ilə yanaşı, onun vokal dilə uyğun olması mütləq şərtdir. Ə.Haqverdiyevin də tərcümələrində bu əsas prinsip kimi çıxış edir. O, mahnının əhval-ruhiyyəsini, poetikliyini olduğu kimi çatdırmış, mahnı öz təravətini itirməmişdir.

Aşağıda nümunə üçün məşhur italiyalı bəstəkar E.Kurtisin "Sorentoya qayıt" mahnısının Ə.Haqverdiyevin tərcüməsində mətni verilmişdir [1]:

*Dəniz üfüqü qəşəngdir,*
*Cəlb edir işıqlı qanadlar.*
*Ürəyimi nazlandırır,*
*Sankı mavi baxışın.*
*Meşəlikdə eşidirsən,*
*Bülbüllərin cəh-cəhini.*
*Hər yan güllərin ətri ilə,*
*Çiçəklənib hər tərəf.*
*Sənsə əzizim gedirsən,*
*Çağırır səni uzaqlar.*
*Doğurdanmı ömürlük,*
*İtirdim səni dostum.*
*Tərk etmə məni,*
*Sənə mən yalvarıram,*
*Qayıt Sorentoya, məhəbbətim!*
*Görürsən dəniz canlıdır,*
*Qaya altında gümüşlənir.*
*Ayaqları dalğalarla,*
*Bürüyüb buraxmayır.*
*Yaşıl yarpaqlarla bağçalar,*
*Sevərək sənə baxırlar.*
*Yalvarırlar ki qalasan,*
*Hər baxış və hər səslə.*
*Sənsə əzizim gedirsən,*
*Çağırır səni uzaqlar,*
*Doğurdanmı ömürlük,*
*İtirdim səni dostum.*
*Tərk etmə məni,*
*Sənə mən yalvarıram,*
*Qayıt Sorentoya, məhəbbətim!*

Beləliklə, Azərbaycan Respublikasının Əməkdar artisti Əli Haqverdiyev Azərbaycan vokal ifaçılığının tarixində mühüm yerə malik sənətkarlardan biri olmuşdur. O, çoxcəhətli yaradıcılığı ilə Azərbaycan vokal ifaçılığı sənəti tarixində maraqlı sənət yoluna malik şəxsiyyətdir. Ə.Haqverdiyev həm müğənni, aktyor, həm də rəssam olmuşdur. Bu fəaliyyət növləri onun yaradıcılığında peşəkar şəkildə öz əksini tapmışdır. İfaçının opera səhnəsində, eləcə də filmlərdə canlandırdığı obrazlar onun hərtərəfli istedad sahibi olmasının göstəricisi rolunda çıxış edir. Ə.Haqverdiyev Azərbaycan vokal ifaçılığı tarixində özünəməxsus yaradıcılıq yoluna malik sənətkardır.

## Ədəbiyyat siyahısı:

1. Ali Haqverdiyevin 75 illiyinə həsr olunmuş Musiqi Xəzinəsi verilişi. I hissə 10.07.2014: [Elektron resurs] / Seyran Gafarzade. – 2014 https://www.youtube.com/watch?v=HqgMogZY6bI
2. Nəzərov, İ.İ. Azərbaycan klassik və estrada vokal ifaçılığının inkişafına qısa nəzər // – Bakı: Mədəniyyət.az, – 2019. iyul-avqust (326), – s. 52-55.
3. Vəzirova, G. Azərbaycanın opera səhnəsinin tarixindən (ötən illərin səhnə ustaları) // – Bakı: Musiqi dünyası, – 2005, № 3-4/25, – s. 212-216.
4. Кафарова, З. Г. Али Ахвердиев / З.Г.Кафарова. – Баку: Сада, – 2003, 64 с.

**Илхам Назаров**

### Взгляд на творчество певца-художника Али Ахвердиева

**Резюме:** В статье рассматривается творчество заслуженного артиста Азербайджанской Республики Али Ахвердиева. Здесь рассматривается многогранность творчества певца, выясняются особенности его жизни и творчества. А.Ахвердиев вошел в историю музыкальной культуры Азербайджана как вокалист, артист, актер, педагог. Он мог проявить себя в каждой из этих сфер деятельности.

**Ключевые слова**: Али Ахвердиев, опера, баритон, певец, голос.

**Ilham Nazarov**

### A look at creativity of the singer-artist Ali Hagverdiev

**Summary:** The article examines the creativity of the Honored Artist of the Republic of Azerbaijan Ali Hagverdiyev. It examines the versatility of the singer's creativity, clarifies the features of his life and work. A. Hagverdiyev entered the history of the musical culture of Azerbaijan as a vocalist, artist, actor and teacher. He could have his say in each of these areas of activity.

**Key words**: Ali Hagverdiyev, opera, baritone, singer, voice.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11. 10. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaş-zadə**